UOT 021

YUSİF ƏSƏDULLAYEV
Bakı Dövlət Universitetinin
Kitabxana-informasiya resurslarının idarə
edilməsi kafedrasının doktorantı
yusifasadullayev@mail.ru

KİTABXANALAR VƏ ELMİ KOMMUNİKASİYA SİSTEMİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/193-197

Məqalədə elmi kommunikasiya sisteminin dövrlər üzrə təhlili verilmişdir. Elmi kommunikasiya sisteminin əsas komponentləri, onların ayrı-ayrı dövrlərdə dəyişikliklərə məruz qalması, sistemə yeni elementlərin daxil olunması məsələləri göstərilmişdir. Eyni zamanda elmi sənəd axınının strukturunda baş verən dəyişikliklərin kitabxanalara təsiri göstərilmişdir. Müasir akademik və elmi kitabxanaların elmi kommunikasiya sistemindəki digər elementlərlə əlaqələri aşkar edilmiş və yeri müəyyən edilmişdir.

Kitab çapından əvvəl elmi kommusikasiya sisteminin əsas elementi kimi müəllif, kitabxana, və oxucu çıxış edirdi, lakin kitab çapının kəşf edilməsi elmi kommunikasiya sisteminə yeni element olan nəşriyyatı daxil edərək sistemə əsaslı şəkildə təsir göstərdi. XX-ci əsrin ikinci yarısımda telekommunikasiya vasitələrinin sürətli inkişafı nəticəsində yeni elementlər elmi kommunikasiya sisteminə daxil olmuş və elementlərin arasındakı əlaqələr miqdarca artmışdır.

Açar sözlər: elmi kommunikasiya, kommunikasiya sistemi, kitabxana, sənəd axını, elektron nəşr.

Giriş. Kitabxanaların elmi kommunikasiya sistemindəki yeri haqqında danışarkən ilk növbədə elmi kommunikasiya sisteminin tərifini vermək lazımdır.

Elmi kommunikasiya sistemi elmi biliklərin formalaşdığı və yayıldığı informasiya məkanıdır. Elmi kommunikasiya, elmi fəaliyyətin və inkişafının əsas mexanizmi, cəmiyyətlə əlaqənin ən vacib vasitələrindən biri, eləcə də alimin, tədqiqatçının şəxsiyyətinin formalaşması və inkişafının zəruri şərti olan elmi məlumatların təqdim edilməsi, ötürülməsi və alınması proseslərinin məcmusudur. Elmi kommunikasiyanın əsasını onun iştirakçılarının peşəkar ünsiyyəti təşkil edir. Elmi kommunikasiya, müxtəlif kommunikasiya kanalları, vasitələri, formaları və institutları vasitəsilə elmi biliklərin axtarışına, toplanmasına və yayılmasına yönəlmiş qarşılıqlı əlaqələrin xüsusi qaydada nizamlanmış sistemini təmsil edir. Elmi ictimaiyyətin üzvləri arasında intensiv informasiya mübadiləsi forması kimi kommunikasiyanın olması həmişə elmi fəaliyyətin əhəmiyyətli bir xarakteristikası kimi qəbul edilmişdir.

Əsas mətn. Qeyd etmək lazımdır ki, elmi kommunikasiya sistemi hələ qədim dövrlərdən mövcud olmuşdur. Lakin qədim dövrlərdə mövcud olan elmi kommunikasiya sisteminin komponentləri, elementləri günümüzdəkindən əsaslı şəkildə fərqlənir. Elmi kommunikasiya sisteminin formalaşdığı ilk dövrlərdə bu sistem əsasən 3 elementdən ibarət idi:

1.Müəllif (alim, tədqiqatçı)
2.Kitabxana (elmi və ya akademik)
3.İstifadəçi (oxucu)

Elmi kommunikasiya mühitində sənədli informasiya müəllif yəni alim, tədqiqatçı tərəfindən yaradılırdı və kitabxanalara verilirdi. Kitabxanalar isə bu sənədləri öz oxucularına çatdırırdıllar onlar arasında sənədlərin yayılmasına xidmət edirdilər. Bu dövrlərdə kitabxanalar istifadəçi(oxucu) ilə müəllif arasında bir informasiya ötürülməsi kanalı rolunu oynayırdı. Kitabçapına qədər mövcud olan elmi kommunikasiya sistemində məlumat vasitəsi kimi əsasən əlyazma kitab çıxış edirdi [3]. Qeyd etdiyimiz sistemdən göründüyü kimi elmi kommunikasiya sisteminin formalaşdığı ilkin dövrlərdə bu sistemin əsas elementi olaraq məhz kitabxanalar çıxış edirdi, çünki kitab çapının olmadığı bir dövrdə kitablar kitabxanalarda istehsal edilir, üzləri köçürülərək yayılırdı. Eyni zamanda onuda demək lazımdır ki, bu dövrdə belə elmi kommunikasiya sistemində oxucu yəni informasiya istehlakçısı, istifadəçisi infor-

masiyanın yaradıcısı, yəni müəllifi kimi çıxış edir. Həmçinin müəllif bu sistem daxilində dövr edən elmi informasiyanın əsas istehlakçısıdır.

Növbəti illərdə getdikcə elmi kommunikasiya sistemi inkişaf etmişdir. Bu sistemə yeni komponentlər daxil olmuş, sistem müəyyən dəyişikliklərə məruz qalmış, və sistemin elementləri arasındakı əlaqələr dahada mürəkkəbləşmişdir. Kitab çapının kəşfindən sonra elmi kommunikasiya sisteminə nəşriyyatlar da vacib bir element kimi daxil olmuşdur. Bu dövrdə elmi kommunikasiya sistemi əsasən 4 elementdən ibarət olmuşdur:

1.Müəllif (alim, tədqiqatçı);
2.Nəşriyyat;
3.Kitabxana (elmi və ya akademik);
4.İstifadəçi (oxucu).

Bu dövrdə mövcud olan elmi kommunikasiya sisteminə nəzər salsaq görə bilərik sistemin elementləri arasındakı əlaqələrin miqdarı artmışdır. Elmi informasiya müəllif tərəfndən yaradılır nəşriyyat tərəfindən nəşr edilir və kitabxanalara verilir, kitabxanalar isə daxil olan sənədləri emal edib, qorunmasını saxlamaqla yanaşı onlardan istifadəni, onların istifadəçilər arasında yayılmasını təşkil edirdi. Qeyd etmək lazımdır ki, nəşriyyatlar yarandıqdan sonra elmi kommunikasiya sistemi daxilində dövr edən elmi informasiyanın miqdarı kəskin şəkildə artmışdır, yeni məlumat vasitələri də bu sistemə daxil olmuşdur. Bu dövrdə əsas məlumat vasitələri kimi çap məhsulları (elmi kitablar, elmi jurnallar və s.) çıxış etmişdir.

Bildiyimiz kimi, kitabxana zaman və məkanda sənədli informasiyanın mövcudluğunu təmin edən sosial institutdur. Bu onun əsas vəzifələrindən biridir. Elmi kommunikasiyaların ənənəvi (elektronadək) sistemində onun elementi olan akademik və ya elmi kitabxana, sənəd axınının hərəkətinin və ondan istifadənin istiqamətləri və elmi kommunikasiya sisteminin hər bir iştirakçısının öz dəqiq təsvir edilmiş funksiyaları və qarşılıqlı əlaqə texnologiyaları yaranmışdır. Bu dövrdə elmi kitabxanalar əsasən nəşriyyatlardan onların fonduna daxil olan müəyyən növ çap nəşrləri ilə məşğul olurdular.

XX əsrin ikinci yarısında baş vermiş informasiya partlayışı elmi kommunikasiya sisteminə daha bir iştirakçını - informasiya orqanlarını (məsələn, ВИНИТИ, ИНИОН, Institute of Scientific information) daxil etdi, lakin bu elementlərin elmi kommunikasiya sisteminə daxil olması ona əhəmiyyətli dərəcədə təsir etmədi), çünki, birincisi, onların məhsulları və xidmətlərindən oxucular, əsasən, elmi kitabxanalar vasitəsilə istifadə edirdilər. İkincisi, informasiyanın maddi daşıyıcısı və onun zaman və məkanda ötürülməsi vasitələri dəyişməz qalırdı. Bu isə elmi kommunikasiyaların formalaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir [4].

Elmi kommunikasiya prosesi bütün iştirakçıların kompleks qarşılıqlı fəaliyyətini təşkil edir. Alim həm elmi məlumatları istehsal edir, həm də onlardan istifadə edir. Nəşriyyatlar sənədli kommunikasiya vasitələrini bir çox formada (kitablar, jurnallar, hesabatlar və s.) yayır, kitabxana isə alimin, informasiya istehlakçısı və məlumat arasında vasitəçi rolunu oynayır. Elektron mühitin inkişafının ilk mərhələlərində, İnternetdən əvvəlki dövrdə, kommunikasiya sxemində sənəd axınının hərəkət istiqaməti əhəmiyyətli dəyişikliklərə məruz qalmadı. Mətbu nəşrlərə elektron nəşrlər əlavə edildi, əvvəlcə maqnit lentlərində, sonra isə 1984-cü ildən kompakt disk və disketlərdə. Bu dövrdə nəşriyyatlarda elektron məhsulların yaradılması və istifadəsi üçün müxtəlif texnologiyalar yaradılıb inkişaf etməyə başladı. Kitabxanalar üçün isə elektron resursları emal etmək və bu resurslar vasitəsilə oxuculara xidmət göstərmək üçün işlər görülməyə başladı.

XX əsrin son onilliyi telekommunikasiya sistemlərinin, kompüter texnikasının inkişafı hesabına informasiyanın istehsalı, yayılması, mübadiləsi və istifadəsi sahəsini kökündən dəyişdirdi. Elmi kommunikasiyaların yeni formaları və vasitələri ortaya çıxdı, bu da mütləq bu kommunikasiya sisteminə təsir etdi. İnternet elmi sənəd axınının strukturunu dəyişdirdi və genişləndirdi, yeni kommunikasiya vasitələrinin yaradılması, saxlanması və istifadəsi üçün bir mühit oldu:

1. Ənənəvi nəşrlərin elektron versiyaları;
2. Ənənəvi nəşrlərə bənzər elektron nəşrlər;
3. Nəşriyyatların internet nəşrləri;
4. Müəlliflərin internet nəşrləri;

5. Elektron arxivlər və məlumat bazaları.

Qeyd olunanlar onu göstərir ki, hazırda elmi kommunikasiya sistemində kommunikasiya vasitəsi kimi istifadə olunur əsasən:

1) mətbuat nəşrləri;

2) nəşriyyat tərəfindən, o cümlədən kitabxanalar tərəfindən eyni vaxtda kağız və elektron yəni iki formada fəaliyyət göstərmək üçün hazırlanan nəşrlər;

3) nəşriyyatın, o cümlədən internet-nəşriyyatların və kitabxanaların hazırladığı elektron nəşrlər;

4) istifadəçinin özü və ya hər hansı bir təşkilat tərəfindən İnternet vasitəsilə dövriyyəyə buraxılan elektron nəşrlər (sənədlər, o cümlədən elmi məqalələr, jurnallar, kitablar və s.);

5) Kitabxanaların hazırladığı əvvəllər nəşr olunmuş əsərlərin elektron kolleksiyaları.

Lakin ən əhəmiyyətlisi, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı, eləcə də elektron nəşrlərin (biliyin forma və təqdimat üsulları kimi) ortaya çıxması və İnternetin elmi kommunikasiya prosesinə daxil edilməsi, sənəd axınının hərəkət istiqamətinin dəyişdirilməsidir, yəni elmi kommunikasiya zəncirində istiqamətlərin dəyişdirilməsi, nəticədə bütün növ əlaqələr və qarşılıqlı əlaqələr İnternet vasitəsilə mümkün olur. Bu, yeni kommunikasiya əlaqələrinin yaranmasında, elmi kommunikasiya sisteminin bütün iştirakçıları arasında informasiya mübadiləsi texnologiyasının formalaşmasında özünü göstərir. Müasir dövrdə elmi kommunikasiya sisteminin iştirakçıları arasında aktiv istifadə olunan əlaqələr miqdarca artmışdır [6].

Elmi kommunikasiya sisteminin fəaliyyətinə təsir edən bir sıra amillər mövcuddur. Bunlardan bir qismi isə məhz elmi və akademik kitabxanalar ilə əlaqəlidir. Elmi tədqiqat aparan alimlərin böyük əksəriyyəti informasiya mənbəyi olaraq kitabxanalardan istifadə edirlər [5].

Qeyd etmək lazımdır ki müasir dövrdə kitabxanalar elmi kommunikasiya sisteminin vacib elementlərindən biri kimi çıxış edir. Lakin elmi kommunikasiya sistemində daim aktiv qalmaq üçün kitabxanalar sistemdə dövr edən informasiya vasitələrini vaxtında əldə etməli və öz istifadəçilərinə çatdırmalıdır. Hal-hazırda informasiyanın miqdarının kəskin şəkildə artması kitabxanaların işini bir qədər çətinləşdirir. Müasir elmi kommunikasiya sistemində dövr edən əsas məlumat vasitəsi kimi elmi jurnalları və həmin elmi jurnalların elektron analoqlarını göstərmək olar. Günümüzdə kitabxanalar elmi kommunikasiya sisteminin aktiv elementi kimi çıxış etmək üçün elmi kommunikasiya sistemində dövr edən informasiya vasitələrinə sahib olmalıdır [2].

Kitabxanaların qarşısında duran əsas problemlərdən biri çap jurnallarının qiymətinin artması və kitabxanaların bütün lazımi jurnalları əldə etmək imkanının olmamasıdır.

Elektron resurslardan istifadə etmək üçün isə xüsusi avadanlıq və proqram təminatı tələb olunur. Müasir kitabxanalar təkcə elektron resursların deyil, həm də onlardan istifadə sisteminin texnoloji hissəsinin daim artması ilə üzləşirlər. Bu problemin qarşısını almaq üçün müasir dövrdə kitabxanalar elektron resursları birbaşa almır, müxtəlif növ məlumat bazalarının xidmətlərinə abunə olur [1].

Nəticə. İnternetin böyük imkanlarına baxmayaraq, kitabxanalar elmi biliklərin əsas saxlama yeri, eləcə də ən etibarlı və sabit kommunikasiya kanalı olaraq qalır. Kitabxanaların ixtiyarında təkcə çap olunmuş nəşrlər deyil, həm də elektron nəşrləri var. Bu nəşrləri kitabxanalar seçir, sistemləşdirir, arxivləşdirir, adekvat əks etdirməni təmin edir, müəyyən informasiya axtarış sistemləri əsasında istifadəyə verir. Kitabxana fondlarının təchizatı və onların qorunması ilə bağlı problemlərin birinci dərəcəli əhəmiyyətini qəbul edərək, elektron kommunikasiya vasitələrinin vaxtında əldə edilməsinə və yayılmasına diqqət yetirmək lazımdır. Şübhəsiz ki, yeni elmi kommunikasiya vasitələri tədqiqatçılar arasında peşəkar təmasların genişləndirilməsi potensialını artırır, elmi fəaliyyətin xarakterinin inkişafına təsir göstərir. Kommunikasiyaların inkişafı kontekstində kitabxanaların qarşısında duran əsas vəzifə etibarlı və keyfiyyətli informasiya və elmi biliklərin əlçatanlığını təmin etməkdir. Bu məqsədə nail olmaq üçün müasir elmi kommunikasiya vasitələrindən istifadə etmək lazımdır: məlumat bazaları, elektron nəşrlər, elektron kitabxanalar, elektron kolleksiyalar, saytlar və s. Məlum olduğu kimi, elmi ədəbiyyatda nəşrlər elmi araşdırmaların nəticələri barədə elmi ictimaiyyətə məlumat vermək üçün əsas mexanizmdir. Hazırda elektron nəşrlər çap nəşrləri ilə bərabər mövcuddur, lakin onlar əlçatanlıqları sayəsində cəmiyyətdə biliklərin yayılmasına daha intensiv şəkildə təsir edirlər. Kitabxanalar ənənəvi olaraq yalnız mövcud nəşrlər haqqında məlumatlara kataloq sistemləri, verilənlər bazası, elektron və biblioqrafik

nəşrlər. Elmi nəşrlərin kitabxana saytlarında görünməsi elmi işçilər üçün nüfuzlu hesab edilməsi çox vacibdir.

Hal-hazırda informasiya texnologiyalarının intensiv tətbiqi nəticəsində elmi kommunikasiya sistemi öz strukturunu dəyişir, yeni kommunikasiya vasitələri meydana çıxır. Eyni zamanda elmi kommunikasiyalar günü gündən elmi inkişafın vacib mexanizmlərindən birinə çevrilir. Bu sistemdən kənarda qalan bir tədqiqatçı elmi inkişafdan demək olar ki təcrid olmuş şəkildə fəaliyyət göstərir.

ƏDƏBİYYAT

1. Qardaşov, R., Əsədullayev, Y. Məlumat bazaları ənənəvi informasiya resurslarının müasir forması kimi / Rəşad Qardaşov, Yusif Əsədullayev // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal.- 2021.- №2 (49).- S.52-60.
2. Quliyev, O. Müasir informasiyalaşdırma cəmiyyətində elektron kataloqun tətbiqinin əhəmiyyəti /O.Quliyev //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal.- 2008.- №2 (23).- S.119-124
3. Лаврик О.Л. Академическая библиотека в современной информационной среде. Новосибирск, 2003, 245 с.
4. Арский Ю.М., Чёрный А.И. Информационные ресурсы для устойчивого развития общества // Междунар. форум по информации. 2003. Т. 28, № 4. С. 3-9.
5. Alonso, S. et al. (2009).: A review focused in its variants, computation and standardization for different scientific fields. Journal of Informetrics. Vol. 3. No. 4. P. 273–289. 46.
6.Beck S. Practical research methods for librarians and information professionals.-New York: Neal-Schuman Publ., 2018.-309 p.

ЮСИФ АСАДУЛЛАЕВ
Докторант кафедры Управление библиотечно-информационными ресурсами Бакинского Государственного Университета

БИБЛИОТЕКИ И СИСТЕМА НАУЧНЫХ КОММУНИКАЦИЙ

В статье представлен анализ системы научной коммуникации по периодам. Показаны основные компоненты системы научной коммуникации, их изменения в отдельные периоды, вопросы внедрения в систему новых элементов. Также в статье показано влияние изменений, происходящих в структуре потока научной документации, на библиотеки. Выявлены и определены взаимосвязи современных академических и научных библиотек с другими элементами системы научной коммуникации.

До появления книгопечатания основными элементами системы научной коммуникации выступали автор, библиотека, и читатель, но с зарождением книгопечатания оказало фундаментальное влияние на систему, включив издательство в систему научной коммуникации как новый элемент. Во второй половине XX века в результате стремительного развития телекоммуникационных средств в систему научной коммуникации вошли новые элементы, а количество связей между элементами увеличились.

Ключевые слова: научная коммуникация, коммуникационная система, библиотека, документальный поток, электронное издание.

YUSIF ASADULLAEV
PhD student of the Department of Library and Information Resources Management of Baku State University

LIBRARIES AND SCIENTIFIC COMMUNICATION SYSTEM

The article presents an analysis of the scientific communication system by period. The main components of the scientific communication system, their changes in certain periods, and the issues of introducing new elements into the system are shown. The article also shows the impact of changes in

the structure of the flow of scientific documentation on libraries. The interrelationships of modern academic and scientific libraries with other elements of the scientific communication system have been identified and determined.

Before the advent of printing, the main elements of the scientific communication system were the author, the library, and the reader, but with the advent of printing, it had a fundamental impact on the system, including the publishing house in the scientific communication system as a new element. In the second half of the 20th century, as a result of the rapid development of telecommunications, new elements entered the scientific communication system, and the number of connections between the elements increased.

Keywords: scientific communication, communication system, library, documentary stream, electronic publication.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Zahidə Rzayeva, t.ü.f.d. Məmmədağa Baxışov.